# Müstəqilliyimiz sərvətimizdir

## Onu qorumaq hər bir azərbaycanlının ən ümdə vəzifəsidir

**Azərbaycanın 1991-ci il oktyabrın 18-də müstəqilliyini Xalq Cümhuriyyətinin varisi kimi bərpa etməsindən 25 il keçir. Bu barədə fikirlərini öyrəndiyimiz millət vəkilləri hesab edir ki, keçən bu illər ərzində Azərbaycan ölkə olaraq tam şəkildə müstəqillik əldə edib. Müstəqillik isə xalqların fəxr edə biləcəyi ən vacib məsələdir. Deputatlar onu da qeyd edirlər ki, bütün sahələrdə uğurlu daxili və xarici siyasət yürüdülür, iqtisadiyyat inkişaf etdirilir, xalqın sosial rifahı yüksəldilir.**

Mövzu ulə bağlı **millət vəkili Sədaqət Vəliyeva** "Kaspi"yə dedi ki, müstəqilliyimiz sərvətimizdir və onu qorumaq, möhkəmləndirmək hər bir azərbaycanlının borcudur: "Müstəqilliyimizin 25-ci ildönümünü qeyd edirik. Ötən müddət ərzində ölkəmizin və xalqımızın keçdiyi yola, əldə etdiyi nailiyyətlərə nəzər saldıqda, bir daha başa düşürük ki, müstəqilliyimiz sərvətimizdir və əsas öhdəliyimiz onu qorumaqdır. Azərbaycan xalqı bir əsrdə iki dəfə müstəqilliyini elan etmiş bəlkə də yeganə xalqdır. Bu fakt özlüyündə bir daha isbatlayır ki, Azərbaycan xalqı müstəqilliyini hər şeydən üstün tutur. Amma etiraf etməliyik ki, müstəqilliyimizin ilk 2 ili heç də arzuolunan şəkildə keçməyib".

S.Vəliyeva xatırlatdı ki, həm Azərbaycanın daxilində siyasi-hərbi qarşıdurmaların baş verməsi, həm də işğalçı Ermənistanın əzəli torpaqlarımıza təcavüz etməsi bizi əldə etdiyimiz müstəqilliyi itirmək təhlükəsilə üz-üzə qoyub: "Lakin xalqımızın iradəsilə 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması, müstəqilliyimizin qarantına çevrilməsi dövlətçiliyimizi məhvolma təhlükəsindən xilas etdi. Məhz həmin ildən başlayaraq Azərbaycan müstəqilliyimizdən doğan yüksəliş, uğur və nailiyyətlər gördü. Bu gün Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin yolunu davam etdirən cənab Prezident İlham Əliyevin rəhbərliyilə daha da inkişaf edir və misilsiz uğurlara imza atır. Hər kəs əmin ola bilər ki, Azərbaycanımız əmin əllərdədir. Çünki ölkəmizdə legitim siyasi hakimiyyət və iqtidarın ətrafında birləşmiş xalq iradəsi var. Xalqla hakimiyyətin vəhdəti olan yerdə isə yalnız inkişaf və tərəqqi olacaq. Buna görə də Azərbaycanın müstəqilliyi hər ötən gün daha da möhkəmlənir. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq, möhkəmləndirmək ondan da çətindir". Sədaqət Vəliyeva əlavə etdi ki, xalqımız dövlətçilik tariximizi daim xatırlayacaq, ötən 25 ildə keçdiyimiz yolu düşünərək gələcəyə baxacaq, Vətənini qorumaq üçün şücaət nümayiş etdirəcək və sərvətimiz olan Azərbaycanımızı qarşılıq gözləmədən sevəcək, qoruyacaq.





**Millət vəkili Tahir Mirkişili** dedi ki, azərbaycanlıların müstəqillik arzusu çox əvvəllərə gedib çıxır: "Bunun nəticəsidir ki, əcdadlarımız Qafqazda uzun illər boyu müxtəlif dövlətlər qurmuşlar, müstəqillik üçün mübarizələr aparmışlar. XX əsrin əvvəllərində çar Rusiyasının dağılmasından, orada baş verən inqilablardan sonra Cənubi Qafqazda yeni bir siyasi şərait yarandı. Və o zaman azərbaycanlılar Şərqdə ilk demokratik respublikanı - Azərbaycanı qurdular. O, həm quruluşuna, həm də qəbul olunan qərarlara görə kifayət qədər mütərəqqi, o zaman üçün həddindən artıq demokratik prinsiplərə əsaslanan dövlət idi. Sonradan baş verən hadisələr, bolşeviklərin Azərbaycanı işğal etməsi nəticəsində respublikamızın ömrü heç iki il də çəkmədi. Demokratik respublikanın devrilməyinə baxmayaraq, Azərbaycan xalqı müstəqil və suveren ölkə qurmaq arzusunu hər zaman ürəyində saxlamışdı. 60-cı illərin ortalarında Azərbaycan Sovet Sosialist Respublikasının iqtisadiyyatı həddindən artıq pisləşmişdi. Yalnız 69-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə təyin olunması və növbəti illərdə ölkə iqtisadiyyatının birdən-birə 2-3 dəfə güclənməsi Azərbaycanın sonrakı müstəqilliyi üçün çox böyük zəmin yaratdı. Məhz bu zəminin əsasında 80-ci illərin sonlarında baş verən hadisələr və Sovet İttifaqının dağılmasından sonra 91-ci ildə Azərbvaycan müstəqilliyini elan etdi. Konstitusiya Aktının qəbulu Azərbaycanın müstəqilliyinin bərpası üçün hüquqi addım idi. Əslində, Azərbaycanın müstəqilliyi üçün real addımlar atılmasına daha əvvəl başlanmışdı".

T.Mirkişilinin fikrincə, Azərbaycanın müstəqilliyini 90-cı ildə də elan etmək olardı: "90-cı ildə Yanvar hadisələrinin baş verməsi, ulu öndərin Naxçıvanda üçrəngli bayrağı qaldırmasından sonra Azərbaycanın müstəqilliyi üçün real zəmin yaranmışdı. Amma hamının bildiyi kimi, Konstitusiya Aktı 91-ci ildə qəbul edildi. Bundan sonrakı dövr ərzində Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlişi, ölkəmizin getgedə daha da güclənməsi, müstəqillik yolunda atılan addımlar, imzalanan müqavilələr Azərbaycanı möhkəmləndirirdi. Siyasi cəhətdən bütövlüyün yaranması, milli barışığın əldə olunması üçün görülən bütün işlər Azərbaycanın bir dövlət kimi təşəkkül tapması üçün böyük önəm daşıyırdı. Bağlanan bütün iqtisadi kontraktlar, neft müqavilələri, siyasi barışıq, eyni zamanda, siyasi mühitin möhkəmlənməsi, daha sonra isə İlham Əliyevin prezident seçilməsi Azərbaycan tarixində yeni bir səhifə açdı. Azərbaycanın siyasi nüfuzunun artması onun müstəqilliyini əbədi və dönməz etdi. Ölkəmizin müstəqilliyi xalqın bir neməti kimi yaddaşımıza həmişəlik həkk oldu".

**Şəfa Tapdıq**